**“COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək” mövzusunda Yüksək Səviyyəli Toplantı işini panel iclaslarla davam etdirir**

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a hazırlıq məqsədilə iyunun 19-da Bakıda keçirilən “COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək” mövzusunda Yüksək Səviyyəli 29-cu Toplantı işini panel iclaslarla davam etdirir.

AZƏRTAC xəbər verir ki, toplantının ilk gününün birinci panel iclası “Çağırışın statusunun icmalı” mövzusuna həsr olunub.

Bosniya və Herseqovinanın sabiq Baş naziri və xarici işlər naziri Zlatko Laqumdziyanın moderatorluğu ilə keçirilən müzakirələrdə çıxış edən COP29-un baş danışıqçısı, Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev COP29 komandasının iyul ayında yeni beynəlxalq tədbir təşkil edəcəyini diqqətə çatdırıb. O deyib ki, iqlim dəyişikliyi ilə mübarizə məsələlərini müzakirə etmək üçün tərəfləri daha qeyri-rəsmi şəraitdə bir araya gətirmək üçün bu vacibdir.

Dünyadakı icmaların iqlim dəyişikliyinin təsirindən əziyyət çəkməkdə davam etdiklərini söyləyən baş danışıqçı beynəlxalq ictimaiyyətin havanın temperaturunun yüksəlməsinin 1,5 Selsi dərəcədə saxlanılması ilə bağlı Paris sazişindən irəli gələn öhdəlikləri yerinə yetirmədiyini vurğulayıb.

İqlim dəyişikliyi ilə mübarizədə maliyyəyə ehtiyac duyulduğunu bildirən Y.Rəfiyev bu maliyyələşmənin təkcə dövlət sektoru ilə məhdudlaşmalı olmadığını deyib, orada özəl sektorun iştirakının da vacibliyinə diqqət çəkib.

Bolqarıstanın sabiq Prezidenti Rosen Plevneliyev Azərbaycanda keçiriləcək COP 29-un uğurlu olacağından əmiliyini ifadə edib. Onun sözlərinə görə, iqlim dəyişikliyi ilə mübarizədə uğur qazanmaq istəyiriksə, fikirlərimizi beynəlxalq tribunalardan və yüksək səviyyədə çatdırmağı bacarmalıyıq. “Azərbaycan gələcək nəsillərə təmiz, yaşıl gələcək təmin etmək üçün çox vacib bir işin öhdəliyini öz üzərinə götürüb”, - deyə o vurğulayıb.

“Əsas məsələ budur ki, hər kəs qlobal istiləşmə problemi ilə bağlı ortaq bir həll yolu tapmalıdır”, - deyən BMT Baş Assambleyasının 77-ci sessiyasının prezidenti Tsaba Körösi əks halda, məsələnin həlli istiqamətində heç bir addım atmağın mümkün olmayacağını diqqətə çatdırıb. Qeyd edib ki, burada və COP29-la bağlı müzakirə olunacaq məsələlər son dərəcə vacibdir. Çünki hazırkı statistik göstəricilər vəziyyətin hansı dərəcədə olduğunu göstərir. Dünyanı dəyişdirmək üçün özümüzdən başlamalıyıq.

Qeyd edək ki, 8 paneldən ibarət və 100-dək qonağın iştirak etdiyi tədbirin ilk günündə “Çağırışın statusunun icmalı”, “Balanslaşdırma, azaltma, uyğunlaşma və davamlılıq” və “İqlim dəyişikliyi və onun su, biomüxtəliflik və ərzaq təhlükəsizliyi ilə əlaqələri” mövzusunda panel müzakirələr aparılır.

Tədbir iştirakçıları, həmçinin “Elm, texnologiya və innovasiyanın rolu”, “Ərzaq və kənd təsərrüfatı sektorunun xüsusi vəziyyəti”, “İqlim dəyişikliyinə və Davamlı İnkişaf Məqsədlərinə cavabımızın maliyyələşdirilməsi”, “Eyni planet, eyni sağlamlıq: davamlı gələcək üçün birləşmək” və “Azərbaycanın öz təcrübəsindən dərslər” mövzularında panellərdə fikirlərini bölüşəcək, təkliflərini səsləndirəcəklər.

Panel müzakirələrdən biri Zəngilan rayonunda təşkil olunacaq.

Tədbir işini iyunun 21-də yekunlaşdıracaq.

**AZƏRTAC**
**2024, 19 iyun**